ŞƏHƏR MERLƏRİNİN RAZILAŞMASI
Yerli enerjinin davamlılığına dair məsul
www.soglasheniemerov.eu

# Azərbaycan

## Ölkə haqqında

Paytaxt: Bakı

Əhali: 9,122 mln.

Dil: Azərbaycan dili

ÜDM (AQP- alıcılıq qabiliyyəti pariteti) yekun/adam başına düşən: $94,318 milyard/$10340

ÜDM (nominal) yekun/adambaşına düşən: $72,189 milyard/$7914

Valyuta: Azərbaycan manatı (AZN)

Mənbə: BVF (2011-ci il üzrə)

## Azərbaycanın enerji strategiyası

Azərbaycan Respublikasında həyata keçirilən ekoloji siyasətin əsas məqsədi hazırkı və gələcək nəsillərin ehtiyaclarının ödənməsi üçün mövcud ekoloji sistemin, iqtisadi potensialın qorunması, eləcə də təbii resurslardan səmərəli istifadə vasitəsilə davamlı inkişafa təminat verməkdir. Müasir dövrdə meydana gəlmiş ekoloji vəziyyət, eləcə də sosial-iqtisadi şərtlər nəzərə alınarsa, Azərbaycanın ekologiya siyasətinin üç əsas prioriteti aşağıdakı kimi müəyyən edilə bilər: 1. Ətraf mühitin mühafizəsinin tənzimlənməsi, çirklənmənin minimuma endirilməsi məqsədi ilə «Davamlı İnkişaf» prinsiplərinə əsaslanan müasir metodları tətbiq etmək, ekoloji təhlükəsizliyi təmin etmək; 2. Hazırkı və gələcək nəsillərin ehtiyaclarının ödənməsi üçün təbii resurslardan səmərəli istifadə, qeyri-ənənəvi metodlar vasitəsi ilə bərpa edilə bilən enerji resurslarından faydalanmaq və enerji səmərəliliyinə nail olmaq; 3. Qlobal ekoloji problemlər zəminində ölkənin ehtiyaclarını qiymətləndirmək, belə problemlərin həll yollarını müəyyən etmək, beynəlxalq təşkilatlarla əlaqələri genişləndirmək, eləcə də milli potensialdan istifadə yolu ilə ekoloji siyasətin icrasını təmin etmək.

http://www.eco.gov.az/en/es-esasistiqametler.php minimized

## Razılaşmanı imzalayanlar: 1

İçəri Şəhərin

## Dəstəklənən texnologiyalar:

Enerji səmərəliliyi: mərkəzləşdirilmiş isitmə sistemi; yarımmərkəzi isitmə sisteminin yenilənməsi; termo-tənzimləyici klapanların quraşdırılması; pəncərələrin və qapıların izolyasiyası; qazanxanaların yenilənməsi; küçə işıqlarına nəzarət; xarici divarların izolyasiyası; enerji sayğaclarının quraşdırılması; elektrik qızdırıcılı buxar qazanları; su qızdırıcı və mərkəzi istimə üçün qazanlar; daxili suötürücü boruların yenilənməsi; sənaye müəssisələrinin və enerji təminatı vasitələrinin müasirləşdirilməsi. Bərpa edilə bilən enerji: təbii qazın paylaşdırılması; bioyanacaq; bioqaz/tullantılardan ayrılan qaz; geotermik, hidroelektrik və günəş enerjisi; bərk biokütlə; külək enerjisi. Nəqliyyat: ictimai şəhər nəqliyyatı; nəqliyyatdan rasional istifadə. Ekoloji cəhətdən təmiz istehsalat: çirkab sularının yığılması və emalı; bərk tullantıların yığılmasının və emalının təşkili; bərk tullantıların toplanması və emalı; çirkab sularının təmizlənməsi; alternativ yanacaq növlərindən istifadəyə keçid; tullantılardan enerjinin əldə edilməsi.

## Azərbaycanda potensial maliyyə institutlarının icmalı

1. Avropa Yenidənqurma və İnkişaf Bankı (AYİB)
2. Avropa İnvestisiya Bankı (AİB)
3. Qlobal Ekologiya Fondu (GEF) (AYİB, BMTİP, YUNEP, YUNİDO, BYİB daxil olmaqla)
4. Asiya İnkişaf Bankı (AİB)
5. Dünya Bankı - BMK Submilli Maliyyə Departamenti
6. ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyi (ABŞ BİA)
7. Dünya Bankı
8. KfW (Almaniya İnkişaf Bankı)
9. Faydalı linklər və milli fondlar

ŞƏHƏR MERLƏRİNİN RAZILAŞMASI
Yerli enerjinin davamlılığına dair məsul

# 1. Avropa Yenidənqurma və İnkişaf Bankı (AYİB)

## Donor haqqında

AYİB Mərkəzi Avropadan Mərkəzi Asiyaya qədər 29 ölkədə layihələri dəstəkləyən beynəlxalq maliyyə institutu, bu regionun ən iri investorudur. AYİB tərəfindən təmin edilən birbaşa maliyyələşdirmənin başlıca formaları kredit, səhmdar kapitalı və ya zəmanətlərdir. Qonşu Şərq ölkələrində AYİB əməliyyatları Avropa İnvestisiya Bankı və Avropa Komissiyası ilə yaxın əməkdaşlıq çərçivəsində həyata keçirilir.

## Müvafiq sektorlar

Aqrosənaye; enerji səmərəliliyi; bələdiyyə və ekologiya infrastrukturu; təbii resurslar; enerji və enerji resursları. Həm dövlət sektoru həm də özəl sektorun maliyyələşdirilməsi mümkündür.

## Dəstəklənən texnologiyalar

Su təchizatı, çirkab sularının toplanması və emalı; bərk tullantıların toplanmasının və emalının təşkili; mərkəzləşdirilmiş istimə sistemi; təbii qazın paylaşdırılması; ictimai şəhər nəqliyyatı; bioyanacaq; bioqaz/tullantılardan əldə olunan qaz; geotermik, hidroelektrik və günəş enerjisi; bərk biokütlə; tullantılardan enerjinin əldə edilməsi; külək enerjisi;

## Maliyyələşdirmə məlumatı

| | |
|---|---|
| **Minimum kredit məbləği** | € 5 milyon, baxmayaraq ki, bəzi hallarda bu məbləğ azala bilər |
| **Maksimum kredit məbləği** | € 250 milyon |
| **Maksimum pay nisbəti** | Özəl sektor layihələri üçün yekun kapitalın 35%-i, dövlət sektoru layihələri üçün isə 70%-i |
| **Faiz dərəcəsi** | "EURIBOR" kimi cari bazar məzənnəsi əsasında. Ölkə və layihə üçün səciyyəvi risklərin əks etdirilməsi məqsədi ilə baza dərəcəsindən yüksək marja əlavə edilir. |
| **Ödəmə müddəti** | 15 ilə qədər |
| **Borcun ödənməsi** | Bir qayda olaraq yarım ildə bir dəfə bərabər hissələrlə |

AYİB layihəni həyata keçirən şirkətlərdən sığorta oluna bilən risklərin sığortalanmasını tələb edir. Bank siyasi risklərə və ya yerli valyutanın konvertasiya edilə bilməməsinə görə sığorta tələb etmir. Adətən AYİB maliyyələşdirdiyi şirkətlərdən kreditə layihə aktivləri ilə (məsələn, daşınar və ya daşınmaz əmlak üzərində girov) təminat verilməsini tələb edir.

## Müraciət üçün tələb olunan məlumat

AYİB layihənin şərtlərə müvafiqliyini qiymətləndirmək üçün aşağıdakı məlumatı tələb edir: 1. Bankın maliyyə ayırmasından necə istifadə ediləcəyi ilə əlaqədar layihənin qısa təsviri; 2. sponsorun qısa təqdimatı; 3. məhsul haqqında təfərrüatlar; 4. bazar araşdırması; 5. xərclərin dəqiq bölgüsü; 6. əlavə mənbələrin müəyyən edilməsi; 7. layihənin gözlənilən maliyyə nəticələrinin icmalı; 8 hər hansı ekoloji problemin icmalı; 9; tələb olunan dövlət lisenziyaları və icazələri, mövcud subsidiyalar, eləcə də ixrac/idxal məhdudiyyətləri haqqında ətraflı məlumat.

Daha ətraflı məlumat üçün bax: http://www.ebrd.com/pages/workingwithus/projects/apply.shtml

## Nümunə layihə

Azərbaycanda AYİB tərəfindən bu günə qədər heç bir müvafiq layihə həyata keçirilməmişdir.

## Müraciət proseduru

AYİB tərəfindən maliyyələşdirilməkdə maraqlısınızsa, aşağıdakı ünvanda onlayn formanı doldurun: http://www.ebrd.com/pages/workingwithus/projects/apply/form.shtml

## Əlaqə məlumatı

**Əlaqə yaradacağınız şəxs: Terri Makkallion (Terry McCallion) (Enerji səmərəliliyi və iqlim dəyişikliyi məsələləri üzrə direktor)**

**Tel: +44 20 7338 7478**

**Faks: +44 20 7338 6942**

**Vebsayt: www.ebrd.com**

ŞƏHƏR MERLƏRİNİN RAZILAŞMASI
Yerli enerjinin davamlılığına dair məsul

# 2. Avropa İnvestisiya Bankı (AİB)

## Donor haqqında

Avropa İnvestisiya Bankı (AİB) Avropa İttifaqının maliyyə institutudur. Onun səhmdarları Avropa İttifaqına üzv olan 27 dövlətdir. Maliyyələşdirmə şərtlərinə cavab versə də, bu günə qədər Azərbaycanda heç bir layihə maliyyələşdirilməmişdir. Qonşu Şərq ölkələrində AYİB əməliyyatları Avropa Yenidənqurma və İnkişaf Bankı və Avropa Komissiyası ilə yaxın əməkdaşlıq çərçivəsində həyata keçirilir. Azərbaycanda investisiyalar Şərq Tərəfdaşlığı ölkələri üçün İnvestisiya Aləti vasitəsilə həyata keçirilir.

## Müvafiq sektorlar

Əksər sektorlar maliyyələşdirilmə meyarlarına cavab verir. Həm dövlət sektoru həm də özəl sektor layihələrinin maliyyələşdirilməsi mümkündür.

## Texnologiyalar

Enerji səmərəliliyi (məsələn, mərkəzi isitmə sistemi, enerji təminatı vasitələrinin yenilənməsi); bərpa oluna bilən enerji (məsələn: günəş enerjisi, külək enerjisi, biokütlə); su təchizatı, çirkab sularının toplanması və emalı, bərk tullantıların yığılması və emalı; sənaye çirklənmələri ilə mübarizə kompleksləri, ictimai şəhər nəqliyyatı.

## Maliyyələşdirmə məlumatı

| | |
|---|---|
| **Minimum kredit məbləği** | layihənin həcmindən asılı olaraq 5-15 milyon avro arasında |
| **Maksimum kredit məbləği** | € 200 milyon |
| **Maksimum pay nisbəti** | Layihə xərclərinin 50%-ə qədəri |
| **Faiz dərəcəsi** | Avropa İnvestisiya Bankının dəyişkən faiz dərəcəli kreditlərini adətən tam ödəmə müddəti ərzində kredit vəsaitindən hər bir istifadə üçün sabit, London Banklararası Təklif Məzənnəsindən (LIBOR) aşağı məzənnə fərqi ilə əldə etmək mümkün olur. |
| **Ödəmə müddəti** | Layihənin növlərindən asılı olaraq 25 ilə qədər |
| **Borcun ödənməsi** | Kreditin ödənişi bir qayda olaraq yarım ildə bir, yaxud ildə bir dəfə həyata keçirilir |

Avropa İnvestisiya Bankı birbaşa kredit və ya maliyyə vasitəçilərinin (bankların) köməyi ilə qlobal kreditlər təmin edir. Avropa İnvestisiya Bankı Azərbaycanda Şərq Tərəfdaşlığı ölkələri üçün İnvestisiya Aləti vasitəsilə fəaliyyət göstərir.

Bank təşəbbüskarın investisiyanın əsaslandırılmasına yönəlmiş ətraflı təhlilini nəzərdən keçirir və aşağıdakılar daxil olmaqla layihənin müəyyən aspektlərinin ilkin qiymətləndirməsini aparır: 1. Texniki; 2. Ekoloji; 3. İqtisadi; 4. Maliyyə; 5. Hüquqi

## Nümunə layihə

Bu günə qədər Azərbaycanda Avropa İnvestisiya bankı tərəfindən heç bir layihə maliyyələşdirilməmişdir.

## Müraciət üçün müəyyən edilmiş meyarlar

Layihə təşəbbüskarlarından sadəcə nəzərdə tutulan maliyyə sövdələşmələri ilə birlikdə kapital qoyuluşu haqqında ətraflı məlumatı Bankın Əməliyyat İdarəsinə təqdim etmək tələb olunur.

Daha ətraflı məlumat üçün: http://www.eib.org/attachments/application_documents_en.pdf

## Müraciət proseduru

€25 milyondan yuxarı dəyərdə olan kreditlər üçün birbaşa Avropa İnvestisiya Bankına müraciət etmək mümkündür. Potensial layihələrin diapazonu və çox çeşidliliyi nəzərə alındığından standartlaşdırılmış sənədləşdirmə tələbi irəli sürülmür. Avropa İnvestisiya Bankına təqdim olunacaq sənədlərin formatına və məzmununa görə layihə təşəbbüskarı cavabdehdir. Zəhmət olmasa, müraciətlə bağlı ətraflı məlumat üçün məlumat mərkəzi ilə əlaqə saxlayın (bax: əlaqə məlumatları)

## Əlaqə məlumatı

**Avropa İnvestisiya Bankı Məlumat xidməti**

**Tel: (+352) 437922000**

**Faks: (+352) 437962000**

**E-mail:info@eib.org**

**Vebsayt: www.eib.org**



# 3. Qlobal Ekologiya Fondu (GEF)

## Donor haqqında

Qlobal Ekologiya Fondu (GEF) qlobal ekoloji məsələlərin həllinə yönəlmiş fəaliyyətin həyata keirilməsi məqsədi ilə 182 üzv dövləti ətraflnda birləşdirir — beynəlxalq institutlar və özəl sektorla tərəfdaşlıq edir. Bu gün GEF qlobal ekologiyanın təkmilləşdirilməsinə yönəlmiş layihələrin ən iri sponsorudur. GEF tərəfdaşlığı, AYİB, BMTİP, YUNEP, YUNIDO, AİB və Dünya Bankı daxil olmaqla, 10 agentlikdən ibarətdir.

## Şərtlərə müvafiq layihələrin növləri

Layihə konsepsiyaları dövlətlər, yerli icmalar, özəl sektor və ya digər vətəndaş cəmiyyəti təşkilatları tərəfindən hazırlana bilər. Aşağıdakı fəaliyyət növləri maliyyələşdirilə bilər: bioloji müxtəliflik; iqlim dəyişikliyi (nəticələrin yüngülləşdirilməsi və adaptasiya); kimyəvi preparatlar; beynəlxalq sular; torpaq resurslarının deqradasiyası və meşələrdən səmərəli istifadə.

## Müvafiq texnologiyalar

Bərpa edilə bilən enerji sahələrində istixana effekti yaradan qazların emissiyasının qarşısının alınması və ya azaldılması; enerji səmərəliliyi; nəqliyyatdan istifadənin səmərəliləşdirilməsi; torpaqdan istifadənin idarə edilməsi, torpaqdan istifadənin xüsusiyyətlərinin dəyişdirilməsi və meşəçiliyin inkişaf etdirilməsi.

## Maliyyələşdirmə məlumatı

GEF dəyəri bir neçə min dollardan bir neçə milyon dollara qədər müxtəlif layihələr üçün qrant təmin edir.

| | |
|---|---|
| **Minimum kredit məbləği** | Konkret bir minimum məbləğ mövcud deyil |
| **Maksimum kredit məbləği** | Maksimum hədd müəyyən edilməyib, GEF tərəfindən Azərbaycana ayrılmış ən yüksək qrantın məbləği 2,7 milyon dollar olmaqla, iqlim dəyişikliyi layihəsi üçün nəzərdə tutulmuşdur. Birgə maliyyələşdirmədə iştirak daxil olmaqla, bu günə qədər Azərbaycan üçün ayrılmış ən yüksək maliyyələşdirmə məbləği 7,2 milyon dollara bərabərdir. |
| **Maksimum pay nisbəti** | Müəyyən edilməyib |
| **Faiz dərəcəsi** | Müəyyən edilməyib |
| **Ödəmə müddəti** | Müəyyən edilməyib |

## Müraciət üçün müəyyən edilmiş meyarlar

Aşağıdakı meyarlara cavab verən layihə təklifləri nəzərə alınacaq: 1. Layihə dünya ekologiyasının təkmilləşdirilməsinə yönəlmiş əsas GEF fəaliyyətlərindən bir və ya bir neçəsinə aid olmalı; 2. GEF-in əməliyyat strategiyaların müvafiq olmalı; 3. yalnız qlobal ekoloji irəliləyişlərin əldə edilməsinə yönəlmiş tədbirlərin əvvəlcədən razılaşdırılmış əlavə xərclərinin GEF tərəfindən maliyyələşdirilməsi məqsədini daşımalı; 4. dövlət layhənin hazırlanmasına və icrasına cəlb edilmiş olmalıdır; 5. layihə layhənin icra ediləcəyi ölkənin (ölkələrin) hökumət(lər)i tərəfindən təsdiq edilmiş olmalıdır. Maliyyələşdirmə ilə bağlı daha ətraflı məlumat üçün, zəhmət olmasa, Azərbaycandakı Koordinasiya Mərkəzi ilə əlaqə saxlayın (bax: əlaqə məlumatları).

www.soglasheniemerov.eu

ŞƏHƏR MERLƏRİNİN RAZILAŞMASI
Yerli enerjinin davamlılığına dair məsul

## Nümunə layihə

Bu günə qədər Azərbaycanda GEF tərəfindən heç bir müvafiq layihə həyata keçirilməmişdir.

## Müraciət proseduru

Layihə təklifini hazırlamazdan əvvəl, ərizəçi Ölkə üzrə Əməliyyatların Koordinasiyası Mərkəzi (bax: əlaqə məlumatları) ilə əlaqə saxlamalı və təklifin yuxarıda qeyd edilən meyarlara uyğun olub-olmadığını yoxlamalıdır. Layihə seçim meyarlarına uyğundursa, təşəbbüslə çıxış edən tərəf GEF təşkilatı ilə əlaqədə Layihə İdentifikasiya Forması (PIF) və aşağıdakı layihənin icra mərhələləri ilə əlaqədar daxili prosedurları hazırlamalıdır. Maliyyələşdirmə və mövcud resursların istifadəsi məqsədi ilə GEF-ə təqdim olunan PIF təkliflərinin əhəmiyyətinin müəyyən edilməsi ölkə səviyyəsində təşkil olunur - ən nəhayət, GEF Əməliyyatların Koordinasiyası Mərkəzi tərəfindən nəzərdən keçirilir. Bir qayda olaraq, layihələrə daxilolma ardıcıllığına müvafiq qaydada baxılır.

Layihə İdentifikasiya formalarını (PIF) aşağıdakı ünvandan əldə etmək olar: http://www.thegef.org/gef/guidelines

## GEF Azərbaycanda koordinasiya mərkəzi

**Cənab Hüseyn Bağırov (Siyasi Əlaqələndirici/Əməliyyatlar üzrə Əlaqələndirici)**

**Tel: 011994-12-4414205**

**Faks: 011 99412 4385454**

**E-mail: ecoministry@eko.baku.az, aliyev@iglim.baku.az, garabaghli@yahoo.com.uk**

**Vebsayt: www.thegef.org**

# 4. Asiya İnkişaf Bankı (AİB)

## Donor haqqında

Asiya İnkişaf Bankı (AİB) yoxsulluğun azaldılması məqsədi ilə Asiya və Sakit Okean regionunda inkişafı maliyyələşdirir. AİB-nin iqlim dəyişikliyi kimi ekoloji məsələlər daxil olmaqla, bir neçə başlıca fəaliyyət sahəsi mövcuddur.

## Müvafiq sektorlar

Təmiz, səmərəli və iqlim dəyişikliklərinə uyğunlaşa bilən enerji sistemləri üçün infrastruktur investisiyaları; səmərəli və davamlı daşıma metodları; etibarlı və əlverişli su və kanalizasiya təchizatı; iqlim dəyişikliklərinə uyğunlaşdırıla bilən və yaşayış üçün əlverişli şəhərlər. Bank yarımmüstəqil, bələdiyyə təşkilatlarına dəstək verir.

## Müvafiq texnologiyalar

Müəyyən edilməyib

## Maliyyələşdirmə məlumatı

| | |
|---|---|
| **Minimum kredit məbləği** | Müəyyən edilməyib |
| **Maksimum kredit məbləği** | Müəyyən edilməyib, 100 milyondan artıq |
| **Maksimum pay nisbəti** | 25% |
| **Faiz dərəcəsi** | Bazara müvafiq |
| **Ödəmə müddəti** | Müəyyən edilməyib |

Bank kreditə və maliyyələşdirmə növünə müvafiq təminat tələb edir.

## Müraciət üçün tələb olunan məlumat

Asiya İnkişaf Bankından yardım olmaq üçün standart ərizə forması yoxdur. Bununla belə, AİB layihənin qiymətləndirilməsi üçün aşağıdakılar daxil olmaqla bəzi əsas məlumatların təqdim edilməsini tələb edir: 1. Ümumi izahedici qeyd; 2 Layihənin təsviri; 3. Zəruri olarsa, etibarlı məsləhətçi və ya konsultasiya şirkəti tərəfindən hazırlanmış, layihənin texniki, maliyyə, iqtisadi və sosial baxımdan məqsədəuyğunluğunu müəyyən edən investisiya əsaslandırması; 4. Sponsor(lar) haqqında məlumat; 5. Layihənin mülkiyyət strukturu; 6. Layihənin reallaşdırılması mexanizmləri; 7. Layihə əməliyyatları; 8. Bazar; 9. Ekoloji və sosial aspektlər; 10. Xərclərin smetası; 11. Maliyyələşdirmə planı; 12. Maliyyə Modeli; 13. Risk Analizi; 14. İcazələr və lisenziyalar. Daha ətraflı məlumat üçün aşağıdakı link vasitəsi ilə AİB-nin veb-saytına daxil olun: http://beta.adb.org/site/private-sector-financing/applying-assistance

## Nümunə layihə

Azərbaycanda Asiya İnkişaf Bankı tərəfindən bu günə qədər heç bir müvafiq layihə həyata keçirilməmişdir.

## Müraciət proseduru

Zəhmət olmasa, daha ətraflı məlumat üçün vebsaytdakı əlaqə forması vasitəsilə AİB ilə əlaqə saxlayın.

## Əlaqə məlumatı

**Azərbaycanda Rezident Missiya**

**Tel: (+99412) 4373477**

**Faks: (+99412) 4373475**

**Vebsayt: www.adb.org**

ŞƏHƏR MERLƏRİNİN RAZILAŞMASI
Yerli enerjinin davamlılığına dair məsul

# 5. Dünya Bankı - BMK Submilli Maliyyə Departamenti

## Donor haqqında

Submilli Maliyyə Departamenti Dünya Bankı və Beynəlxalq Maliyyə Korporasiyasının birgə təşəbbüsüdür. O, dövlətlər, əyalətlər, bələdiyyələr və onların müəssisələri üçün maliyyə, eləcə də dövlət zəmanəti olmadan kapital bazarlarına çıxış imkanı təmin edir.

## Müvafiq sektorlar

Enerji səmərəliliyi; elektrik enerjisi; qazın paylaşdırılması; mərkəzi isitmə sistemi; suyun və çirkab sularının emalının idarə edilməsi; nəqliyyat; bərk tullantılar; digər əhəmiyyətli kommunal xidmətlər. Bələdiyyə, əyalət, region və ya yerli dövlət idarəetmə orqanları, eləcə də onların törəmə müəssisələri üçün maliyyələşdirmə həyata keçirilə bilər.

## Müvafiq texnologiyalar

Müəyyən edilməyib

## Maliyyələşdirmə məlumatı

| | |
|---|---|
| **Minimum kredit məbləği** | Müəyyən edilməyib |
| **Maksimum kredit məbləği** | Müəyyən edilməyib |
| **Maksimum pay nisbəti** | Müəyyən edilməyib |
| **Faiz dərəcəsi** | Müəyyən edilməyib |
| **Ödəmə müddəti** | Müəyyən edilməyib |

Submilli Maliyyə Departamenti öz qiymətləndirmə modelinə uyğun müəyyən edilmiş meyarlar vasitəsi ilə riski dəyərləndirir. Bura daxildir: 1. maliyyə (dövlət zəmanəti olmadan borca xidmət üçün pul dövriyyəsinin proqnozlaşdırıla bilməsi, ödəmə qabiliyyəti; 2. ictimai-iqtisadi (güclü iqtisadi baza) 3; institusional (səmərəlilik əmsalı); 4. tənzimləyici (bazarın inkişafı, desentralizasiya dərəcəsi); 5. inkişafa təsir: (investisiyanın zəruriliyi, güclü iqtisadi səmərə və yoxsulluğun azaldılması ilə bağlı üstünlüklər)

## Müraciət üçün tələb olunan məlumat

Zəhmət olmasa, maliyyələşdirmə üçün müraciət edərkən aşağıdakı başlıca məlumatları daxil etdiyinizdən əmin olun: 1. sözügedən müəssisənin adı və ünvanı; 2. müəssisənin dövlət zəmanəti olmadan kommersiya şərtləri əsasında borc almaq üçün səlahiyyətli olduğunun təsdiqi; 3. vəsaitdən/investisiyadan təklif edilən istifadə haqqında məlumat; 4. yekun investisiya xərcləri; 5. tələb olunan maliyyələşdirmə məbləği 6. layihənin təqribi başlanma və yekunlaşdırılma vaxtı; 7. maliyyə institutları və ya tikinti şirkətləri kimi artıq layihəyə cəlb edilmiş tərəflərin adları

## Müraciət proseduru

Submilli layihənin maliyyələşdirilməsində maraqlısınızsa, e-mail və ya faks vasitəsi ilə sorğu göndərə bilərsiniz. Xahiş edirik, elektron məktubunuzun mövzu qrafasında və ya faksın əvvəlində «Maliyyələşdirmə sorğusu» sözlərini, eləcə də əlaqə məlumatlarınızı yazmağı unutmayın.

## Əlaqə məlumatı

**Faks: (202) 974-4310**

**E-mail: subnationalfinance@ifc.org**

**Vebsayt: http://www.ifc.org/subnationalfinance**

ŞƏHƏR MERLƏRİNİN RAZILAŞMASI
Yerli enerjinin davamlılığına dair məsul

# 6. ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyi (ABŞ BİA)

## Donor haqqında

ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyi (ABŞ BİA) Birləşmiş Ştatların xarici siyasət məqsədlərinə dəstək məqsədi ilə bütün dünyada iqtisadi, inkişaf yönümlü və humanitar yardımı təmin edən müstəqil agentlikdir.

## Müvafiq sektorlar

Benefisiarlar bələdiyyələr və QHT-lərdir

## Müvafiq texnologiyalar

Əlaqədar texnologiyalar: enerji səmərəliliyi, $CO_2$ emissiyalarının azaldılması, mərkəzi isitmə təchizatı

## Maliyyələşdirmə məlumatı

ABŞ BİA artıq öz vebsaytında müqavilə fürsətləri haqqında elanları dərc etmir. Əvəzində bu bildirişlər 'www.grants.gov' internet ünvanında dərc edilir. Zəhmət olmasa, Grants.gov vebsaytına daxil olun və elektron bildirişlər almaq üçün qeydiyyatdan keçin.

## Müraciət proseduru

Zəhmət olmasa, ABŞ BİA tərəfindən maliyyələşdirmə üçün mövcud elanlara nəzər salın. Bunun üçün www.grants.gov internet ünvanına daxil olmaq olar

## ABŞ BİA/Azərbaycan əlaqə məlumatı

**ABŞ BİA-nın Azərbaycan şöbəsi ilə əlaqə saxlamaq üçün aşağıdakı saytdakı əlaqə formasından istifadə edə bilərsiniz:**

**http://azerbaijan.usaid.gov/contact**

**Qlobal vebsayt: www.usaid.gov**

**ABŞ BİA-nın qrant elanları ilə www.grants.gov internet ünvanında tanış olmaq olar**

# 7. Dünya Bankı

## Donor haqqında

Dünya Bankı bütün dünyada inkişaf etməkdə olan ölkələr üçün həyati əhəmiyyətli maliyyə və texniki yardım mənbəyidir. Bank 187 üzv dövlətə məxsus iki inkişaf təşkilatından ibarətdir: Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı (BYİB) və Beynəlxalq İnkişaf Assosiasiyası (BİA). BYİB-nin məqsədi orta gəlirli və kredit qabiliyyəti olan nisbətən kasıb ölkələrdə yoxsulluğu azaltmaqdır, BİA-da isə əsas diqqət dünyanın ən yoxsul ölkələrinə yönəldilir.

## Müvafiq sektorlar

Azərbaycanda BYİB tərəfindən bu günə qədər heç bir müvafiq layihə həyata keçirilməmişdir.

## Maliyyələşdirmə məlumatı

Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı (BYİB) və Beynəlxalq İnkişaf Assosiasiyası (BİA) investisiya layihələri üçün orta illik kredit öhdəlikləri təqdim edir. Bu vəsaitlər benefisiar ölkələr tərəfindən malların və avadanlıqların alınması, tikinti işlərinin aparılması və bu layihələrinin həyata keçirilməsi üçün tələb olunan konsultasiya xidmətlərinin əldə edilməsi üçün istifadə edilir. Hər bir layihəyə bütün dünyadan təchizatçılar, podratçılar və məsləhətçilərlə çoxsaylı müqavilələr daxil ola bilər. Dünya Bankı tərəfindən maliyyələşdirilən layihələr çərçivəsində biznes fürsətlərindən faydalanma zamanı, benefisiar ölkədəki icraedici təşkilatın satınalmalara görə cavabdeh olduğunu başa düşmək vacibdir. Bütün müqavilələr debitor (adətən dövlət təşkilatı, yəni icraedici təşkilat) və təchizatçı, podratçı, yaxud məsləhətçi arasında bağlanır. Bankın rolu debitorun işinin lazımınca görüldüyündən, razılaşdırılmış satınalma prosedurlarının izlənildiyindən və prosesin bütövlükdə səmərəlilik, ədalət, şəffaflıq və bitərəflik zəminində yerinə yetirildiyindən əmin olmaqdan ibarətdir.

## Nümunə layihə

Azərbaycanda Dünya Bankı tərəfindən bu günə qədər heç bir müvafiq layihə həyata keçirilməmişdir.

## Müraciət proseduru

Ətraflı məlumat üçün yerli ofislə əlaqə saxlayın

## Əlaqə məlumatı

**Dünya Bankının Bakı ofisi**

**Xanım Səidə Bağırlı, xarici əlaqələr üzrə menecer:**

**Tel: (994-12) 492-19-41**

**Faks: (994-12) 492-68-73**

**E-mail: sbagirli@worldbank.org**

**Vebsayt: www.worldbank.org**

# 8. KfW (Almaniya İnkişaf Bankı)

## Donor haqqında

KfW Almaniyanın aparıcı inkişaf bankı və KfW Bankengruppe-nin tərkib hissəsidir. Bizim əsas sifarişçimiz Almaniya nazirlikləridir, lakin Avropa Komissiyası və digər ölkələrin hökümətləri də öz inkişaf məqsədli əməkdaşlıq proqramlarının və layihələrinin yerinə yetirilməsini bizə həvalə edirlər. Azərbaycanla Almaniya arasında Maliyyə Əməkdaşlığı (FC) 1995-ci ildə başlamışdır və Federal İqtisadi Əməkdaşlıq və İnkişaf Nazirliyi (BMZ) adından KfW Entwicklungsbank tərəfindən icra edilməkdədir. 2001-ci ildən etibarən BMZ-nin regional Qafqaz Təşəbbüsü (CI) Ermənistanla ikitərəfli əməkdaşlıq vasitəsi ilə genişləndirilmişdir.

www.soglasheniemerov.eu

ŞƏHƏR MERLƏRİNİN RAZILAŞMASI
Yerli enerjinin davamlılığına dair məsul

## Müvafiq sektorlar

Bu gün KfW Entwicklungsbank əsasən enerji ötürülməsi, eləcə də bərpa oluna bilən enerji sahəsində investisiyaları maliyyələşdirir.

## Maliyyələşdirmə məlumatı

Bank layihəniz üçün universal maliyyələşdirmə mənbəyidir. Bəzi hallarda KfW krediti maliyyə ehtiyaclarının yalnız bir hissəsini əhatə edə bilər.

## Nümunə layihə

Doxsanıncı illərdə Azərbaycanın elektrik enerji sistemi heç də stabil deyildi. Buna görə də elektrik enerjisinin ötürülməsi və paylaşdırılması sahəsində FC-nin maliyyə yardımı ilə həyata keçirilən fövqəladə tədbirlər müstəqilliyin əldə edilməsindən illər sonra, ölkədə elektrik enerjisi təchizatının stabilləşdirilməsində həlledici rol oynadı.

## Müraciət proseduru

Ərizələr hər zaman layihə başlamazdan əvvəl təqdim olunmalıdır (məsələn, sonuncu məcburi qüvvəyə malik müqavilədən/sifarişdən və ya alqı-satqı müqaviləsinin bağlanmasından əvvəl), çünki borc öhdəliklərinin təkrar strukturlaşdırılması və sonradan maliyyələşdirmə mümkün deyil. Ətraflı məlumat üçün yerli ofislə əlaqə saxlayın

## Əlaqə məlumatı

**KfW Bakı ofisi Nizami küç. 10, 1001 Bakı**

**Tel: +99 41 24 97 80 71**

**Faks: +99 41 24 97 80 72**

**E-mail: natig.abdullayev_extern@kfw.de**

**Vebsayt:**

**http://www.kfw-entwicklungsbank.de/ebank/EN_Home/Countries_and_Programmes/Europe/Azerbaijan**

ŞƏHƏR MERLƏRİNİN RAZILAŞMASI
Yerli enerjinin davamlılığına dair məsul

# 9. Faydalı linklər və milli fondlar

## 1. INOGATE

INOGATE proqramı Avropa İttifaqı ilə Azərbaycan daxil olmaqla Tərəfdaş ölkələr arasında beynəlxalq enerji əməkdaşlığı proqramıdır. Onlar aşağıdakı dörd başlıca məqsədə nail olmaq üçün birlikdə işləməyə razılaşıblar: 1. Ölkələrin xüsusiyyətləri nəzərə alınmaqla, enerji bazarların Aİ-nin daxili enerji bazarı prinsipləri əsasında uzlaşdırılması; 2. Enerji resurslarının ixracı/idxalı, təchizat mənbələrinin müxtəlifliyi, enerji tələbatı və enerji daşıyıcılarının tranzit məsələlərinin həllinə yönəlməklə enerji təhlükəsizliyinin genişləndirilməsi; 3. Davamlı enerji mənbələrinin istifadəsinin inkişaf etdirilməsinin, o cümlədən enerji səmərəliliyinin, bərpa oluna bilən enerjinin və istehlakçı tələbatının rasional idarə edilməsinin inkişafının dəstəklənməsi; 4. Ümumi və regional maraq kəsb edən enerji layihələrinə investisiyaların cəlb edilməsi.

Vebsayt: www.inogate.org

## 2. AQTA

Avropa Qonşuluq və Tərəfdaşlıq Aləti (AQTA) konkret yardımlar vasitəsilə Avropa Qonşuluq Siyasətini (AQS) dəstəkləyən maliyyə alətidir. AQS-nin məqsədi sərhədləri genişlənmiş Aİ və qonşuları arasındakı fərqliliklərdən yayınmaq üçün Avropaya qonşu ölkələrdə çiçəklənmənin, stabilliyin və təhlükəsizliyin gücləndirilməsidir.

Vebsayt: http://ec.europa.eu/world/enp/index_en.htm

## 3. GTZ - GIZ

Almaniya Federal dövləti və digər sifarişçilər adından fəaliyyət göstərən GTZ - GIZ istixana effekti yaradan qazların emissiyasının azaldılması və iqlim dəyişikliyinin nəticələrinə adaptasiya məqsədi daşıyan İqlim Dəyişikliyi ilə əlaqədar Çərçivə Sazişinin icra edilməsində tərəfdaş ölkələrə dəstək verir. Bundan əlavə, GTZ tərəfdaş ölkələrdə geniş diapazonlu praktik tədbirlər vasitəsi ilə iqlim siyasəti prinsiplərini icra edir.

Vebsayt: www.giz.de

## 4. Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi

Vebsayt: http://www.eco.gov.az/en/

## 5. REEEP

Bərpa edilə bilən Enerji və Enerji Səmərəliliyi Tərəfdaşlığı (REEEP) əsas diqqəti formalaşmaqda olan bazarlara və inkişaf etməkdə olan ölkələrə yönəltməklə, bərpa olunan enerji və enerji səmərəliliyi bazarının inkişafını sürətləndirmək məqsədi daşıyan dəyişikliklərin təşəbbüskarı kimi tanınan qeyri-kommersiya təsisatıdır.

Vebsayt: http://www.reeep.org/

## 6. Milli fondlar

Şərq Tərəfdaşlığı və Mərkəzi Asiya ölkələrinin çoxu müntəzəm köməkçi struktur və fondların təsis edilməsi prosesinə yenicə başlamışlar. Davamlı Enerji Fəaliyyət Planları (SEAP) hələ ki yerli inkişaf siyasətinin inkişaf etdirilməsi sahəsində geniş yayılmış alət deyil, buna görə də, bu konkret vəzifə üçün heç bir dəqiq, davamlı, çoxillik milli proqram mövcud deyil. Bununla belə, Milli Enerjiyə Qənaət Proqramları çərçivəsində köməkçi mexanizmlər mövcuddur və sürətlə inkişaf etməkdədir. Bura Davamlı Enerji Fəaliyyət Planlarının inkişafının dəstəklənməsi üçün komponentlər daxil edilə, lakin istifadə və iştirak prosedurları hər il dəyişə bilər. Hal-hazırda milli fondlardan maliyyə dəstəyi almaq istəyən razılaşma tərəflərinə zəruri vəsaitə malik ola biləcək müvafiq Şəhərsalma və İnşaat; Regional İnkişaf, Enerji və Ekologiya nazirliklərinə, eləcə də rayon idarələrinə və ekoloji fondlara müraciət etmək tövsiyə edilir.

Bu sənədin məzmununa görə yalnız Şəhər Merlərinin Razılaşmasının Şərq Ofisi məsuliyyət daşıyır. O, heç də mütləq mənada Avropa İttifaqının fikrini əks etdirmir. Avropa Komissiyası bu sənəddə verilmiş məlumatlardan hər hansı bir şəkildə istifadə edilməsinə və ya məlumatların diqqətlə hazırlanmasına baxmayaraq, onların mətnində yol verilmiş hər hansı xətalara görə məsuliyyət daşımır. Şəhər Merlərinin Razılaşmasının Şərq Ofisi Avropa Komissiyasının İnkişaf və Əməkdaşlıq üzrə Baş Direktorluğunun (DG DEVCO) maliyyə dəstəyi ilə təsis edilmişdir. Onun fəaliyyətinə rəhbərliyi Enerji Şəhərləri təşkilatı həyata keçirir və tərkibinə İqlim Alyansı, «Ukraynanın Enerji Səmərəli Şəhərləri» Assosiasiyası, NL Agentliyi və Mərkəzi Asiya üçün Regional Ekoloji Mərkəz daxildir.